

# "Qohum"

**hekayə**

*Zakir Bağır*

Rayon Əmək-Ekspert Komissiyasının baş həkimi əvəz edən həkim Əvəz telefonla danışırdı:

- Narahat olmayın. Qorxulu bir şey yoxdur. Dediyim dərmanları qəbul etsin. Dəniz sahilində otursun. Səhərlər və axşamçağılar.

Qapı açıldı. Əlində dəftər tutmuş yaşlı bir kişi əvvəlcə içəri boylandı. Sonra içəri girdi:

- Gəlmək olar doktor?

Həkim əvvəlcə əli ilə işarə etdi (telefonla danışıram çölə çıx).

Amma yaşlı kişi yerindən tərpənmədi.

- Ay kişi, sənə deməmdim?

Yaşlı kişi cavab vermədi. Həkim Əvəz telefona:

- Yox-yox sizi deməmdim. Yaşlı bir xəstə icazəsiz içəri girib. Mən özüm sizə zəng edərəm.

Həkim Əvəz telefon dəstəyini yerində qoydu:

- Ay kişi xəstəliyin nədir?

Yaşlı kişi cavab vermədi. Yaxına gəlib həkim Əvəzlə üzbəüz oturdu. Əlindəki dəftəri mizin üstündə qoydu.

- Doktor Hüseyn Əvəzov sənsən?

- Yox.

- Necə yəni yox? Gözləmə otağında ağ xalat geyinmiş qızdan soruşdum. O, bu otağı nişan verdi. O qız məni aldadıb?

Həkim Əvəz yaşlı kişinin sözünü kəsdi.

- Ay kişi Mən Hüseyn Əvəzov deyiləm.

O sağ əlini pencəyin sol qoltuğu cibinə saldı. Şəxsiyyət vərəqəsini çıxartdı:

- Mən...

Yaşlı kişi tez dəftərinə baxdı.

- Necə unutmuşam, doktor Əvəz Hüseynov sənsən?

- Mənəm, dərdin nədir ay kişi? Nə xəstəliyin var? Yəqin gözləmə otağında çoxlu xəstə var. Onları qəbul etməliyəm.

- Məni tanımadın?

- Yox, ay kişi, dərdini de.

- İndiki cavanlar niyə belə olur?

- İndiki cavanlara nə olub?

- Vəzifəyə keçəndən sonra doğma qohumlarını da tanımırlar.

- Məgər biz qohumuq?

- Hələ indi soruşursan?

- Sabizəli dayınam da.

- Sabizəli dayım? Mənim bir dayım olub, adı Həmid idi. Beş-altı ildir ki, dünyasını dəyişib.

- Anan Maral bacıdan soruşasan.

- Axı anamın adı Maral deyil.

Sabizəli yenə dəftərində baxdı:

- Atan Həsən, anan Maral bizim kənddə işləyəndə körpə idin.

- Axı nə atamın adı Həsəndir, nə anamın adı Maraldır.

Sabizəli öz-özünə pıçıldadı: "Yenə aləmi bir-birinə qarışdırdım". O dəftərində baxdı:

- Atanın adı Hüseyndir, ananın adı da Ceyran. Onlar səni bizim evdə qoyub məktəbə işə gedirdilər.

- Sizin kəndin adı nədir?

- Aylı kəndi

- Valideynlərim heç vaxt Aylı kəndində işləməyiblər.

- Necə yəni işləməyiblər? - Sabizəli yenə dəftərinə baxdı:

- Hə, düz deyirsən. Günəşli kəndində işləyiblər.

Sabizəli öz-özünə pıçıldadı: "Axı, arvad deyirdi, qoy mən gedim, yoxsa işləri korlayarsan. Baxmadım onun sözünə. O da doktorun qohumlarının ad-familyalarını yazdı dəftərə. Bir neçə dəfə oxu dedi. Yaddan çıxmasın. Yenə aləmi qatmışam bir-birinə. İndi arvada nə deyəcəyəm. Arvad düz deyir, fərsizəm".

- Ay kişi, xəstəliyin nədir? Yəqin gözləmə otağında çoxlu xəstə var, onları qəbul etməliyəm.

- Əslində qalsa mən də xəstəyəm, Şərabanı xalam da.

- Axı mənim Şərabanı adlı xalam yoxdu.

- Necə yəni yoxdur? Xalan özü gəlmək istəyirdi. Dedi ki, bacım oğlunu qrup verən idarənin böyüyü veriblər. Gedib onu təbrik edim. Həm də dərdimi deyim. Necə olsa qohumuq. Ətimiz yesə də, sümüyümüzü atmaz. Qoy sənə və mənə qrup versin. Qızımızı da götürsün işə. Yüngülvarı iş olsa da eyib etməz.

- Axı, hələ əmrimi verməyiblər.

- Sən buranın müdiri deyilsən?

- Hələ əvəz edirəm.

- İnşallah əmrini də verərlər.

- Sabah Şərabanı xalan gələr. Necə qohum olduğumuzu deyər sənə.

Telefon zəng çaldı. Həkim əvəz dəstəyi götürdü:

- Alo, eşidirəm.

Telefonda əsəbi səs eşidildi:

- Heç gözləmə otağına baxmısan? Gör nə qədər xəstə növbə gözləyir. Günortaya az qalıb. Amma sən bir xəstəni də qəbul etməmisən. Səndən şikayət edən xəstələrin sayı-hesabı yoxdur.

Həkim Əvəzin dili dolaşdı:

- Mən...

- Nə mən, mən salmısan. Biz sənə etimad göstərib həkim Əmək Eksperti Komissiyasının baş həkimi təyin etmək istəyirdik. Görünür, səhv etmişik. İşi həkim Mirzəcanova təhvil ver.

Sabizəli dəftəri açdı, həkim Mirzəcanovun ad, familyasını orada yazdı. "Sabah arvadı göndərərəm. O təzə müdirlə dil tapar".

Qapısı açıq yan otaqdan gələn həkim Mirzəcanov Sabizəliyə baxdı:

- Ay kişi, mənim adımı və familyamı dəftərdə niyə yazmısan! Sabah xanımını da göndərməyə ehtiyac yoxdur. Mən bu rayondan deyiləm. Burada heç qohum-tanışlarım da yoxdur. Uşaq evində böyümüşəm. Uzaq bir yerdə. Valideynlərim də uşaq evində böyüyüblər.

Sabizəlinin rəngi dəyişdi. Tələsik açıq qoyduğu qapıdan qəbul otağına keçdi. Çıxış ancaq buradan idi. Qəbul otağında çoxlu xəstə var idi. Sabizəli onların arasından çətinliklə keçdi. Dəftər əlindən düşdü. Kimsə dəftəri götürüb vərəqlədi. Bir neçəsi ona nəzər saldı.

- Kişi getdi ki, bəs dəftəri nə edim?

- At zibil yeşiyinə.

Həkim Mirzəcanov dedi:

- Hamınızı qəbul edərəm. Kimin növbəsidir gəlsin.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL B**
K
Müxbir h
S.W.I.F.
3807001941
**İndeks**